# Ermənistan beynəlxalq humanitar hüquq normalarını pozmaqda davam edir

***Dünən səhər 7-dən başlayaraq Tərtər istiqamətində döyüşlər yenidən şiddətlənib. Azərbaycan Ordusu düşməni atəş nöqtələrini, canlı qüvvələrini zərərsizləşdirmək üçün tədbirlərin miqyasının genişləndirib.***

***Xatırladaq ki, düşmən dağlıq hissədə dəmir-beton konstruksiyalı istehkamlarda gizlənərək Dağlıq Qarabağla sərhəddə yerləşən Tərtər rayonunun daha çox dinc əhalinin məskunlaşdığı ərazilərini atəş altında saxlayır. Hərbi ekspertlərin bildirdiyinə görə, belə bir şərait sözügedən istiqamətdə düşmən qüvvələrini tamamilə darmadağın etməkdə müəyyən çətinliklər yaradır. Ümumiyyətlə, Ermənistan ordusu dağlıq relyefə malik ərazilərdəki mövqelərindən daha çox mülki əhalinin yaşadığı ərazilərə atəş açır və ağır, qadağan olunmuş mərmilərə üstünlük verir. Bu da mülki əhali arasında daha çox qırğın törətmək, çaşqınlıq, qorxu yaratmaq məqsədindən irəli gəlir. Əslində isə bu cür fitnəkar əməllər müharibə cinayətidir.***



Sentyabrın 27-də Ermənistanın növbəti təxribatına cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatına başlayandan ötən günlər ərzində işğalçıların ərazilərimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmaları qarşısında düşmənə sarsıdıcı zərbələr endirib, cəbhə bölgəsində genişmiqyaslı hərbi əməliyyatlara başlayıb. Ermənistan Silahlı Qüvvələri tərəfindən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki əhali arasında böyük itki qeydə alınıb. Sosial infrastruktura ciddi ziyan dəyib.

Azərbaycan Ordusu düşmənin təxribatlarının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini gerçəkləşdirmək məqsədilə cavab tədbirləri görüb. Müdafiə Nazirliyinin operativ məlumatına əsasən, ordumuzun uğurlu əks-hücum əməliyyatları nəticəsində Füzuli-Cəbrayıl istiqamətində Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Abdurrəhmanlı, Böyük Mərcanlı və Nüzgar kəndləri işğaldan azad edilib. Bundan başqa, Ağdərə və Murovdağ istiqamətində ermənilərin bir neçə postu tamamilə darmadağın olunub. Silahlı Qüvvələrimizin bölmələri cəbhənin Goranboy istiqamətindəki strateji yüksəkliklərdən birini –Murovdağ dağ silsiləsinin Murov yüksəkliyini azad edib. Azərbaycan ordusu Talış kəndi ətrafında bir neçə strateji yüksəkliyi də Ermənistanın işğalçı qüvvələrindən təmizləyib.

Oktyabrın 3-də Azərbaycan Silahlı Qüvvələri strateji cəhətdən əhəmiyyətli daha bir yaşayış məntəqəsini – dövlət başçısının həmin gün Sugovuşan tarixi adını qaytardığı Madagiz kəndini yağı tapdağından xilas edib. Həmin gün Tərtər rayonunun Talış, Cəbrayıl Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq və Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndləri ordumuz tərəfindən işğalçılardan təmizlənib.

Oktyabrın 4-də Azərbaycan Ordusu Cəbrayıl şəhərini və bu rayonun doqquz kəndini – Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Dəcəl, Mahmudlu, Cəfərabad yaşayış məntəqələrini sonrakı gün– oktyabrın 5-də isə Cəbrayılın Şıxalıağalı, Məzrə və Sarıcalı kəndlərini işğalçılardan təmizləyib. Oktyabrın 9-da Silahlı Qüvvələrimiz strateji baxımdan mühüm əhəmiyyət daşıyan tarixi adı Ağaoğlan olan Hadrutu düşmən işğalından azad edib.

Sentyabrın 27-də Azərbaycan Ordusu Ermənistana qarşı əks-hücum əməliyyatına başlayandan indiyədək düşmən tərəf bir daha bütün dünyaya özünün terrorçu mahiyyətini nümayiş etdirib. Belə ki, ötən müddətdə işğalçı ölkə ənənəvi olaraq terror taktikasına əl ataraq münaqişə zonasından uzaq məsafədə yerləşən Azərbaycanın yaşayış məntəqələrini, əhalini və mülki infrastrukturu intensiv atəşə tutub. Nəticədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın münaqişə və müharibə zonasından kənarda yerləşən yaşayış məntəqələrinə ağır artilleriya və raket zərbələri nəticəsində 41 mülki şəxs həlak olub, 211 nəfər yaralanıb, 1200-dən artıq şəxsi ev və mülki obyekt dağıdılıb.

Onu da vurğulayaq ki, xoşməramlı niyyətini nümayiş etdirən Azərbaycan tərəfi Rusiya Federasiyasının müraciətlərinə müsbət reaksiya göstərərək, məlum Moskva görüşündə konstruktiv şəkildə danışıqlara qoşulub. Ölkəmiz həmin iclasda razılaşdırılmış humanitar atəşkəsə sadiqliyini elan edib.

Ümumiyyətlə, oktyabrın 9-da Rusiyanın vasitəçiliyi ilə əldə edilən atəşkəs humanitar xarakter daşıyırdı və bu, hər iki tərəfə həlak olmuş hərbçilərin cəsədlərini təhvil vermək imkanı yaradırdı. Bu, eyni zamanda, Ermənistana mövcud reallığa adekvat addımlar atmaq, iddialarından geri çəkilmək, işğal siyasətinə son qoymaq, münaqişənin beynəlxalq hüquq çərçivəsində həlli istiqamətində real addımlar atmaq üçün son şans idi. Ermənistan üçün imkan idi ki, daha ağır zərbələr almaqdan qaçsın, işğalçılıq siyasətindən əl çəksin. Lakin Paşinyan rejimi bu imkanı da əlindən buraxdı və təcavüzkarlıq siyasətini davam etdirməkdə israrlı olduğunu nümayiş etdirdi. Lakin buna baxmayaraq Ermənistan tərəfi çox fərqli bir yol seçdi. İşğalçı ölkənin silahlı qüvvələri Azərbaycanın Tərtər rayonu, Suqovuşan ərazisi yaxınlığında erməni hərbçilərinin cəsədlərini toplayan Azərbaycan hakim qrupuna minaatandan atəş açdı. Nəticədə Azərbaycan bir tibb işçisi ağır yaralandı. Bundan əlavə, oktyabrın 11-i gecə saat 2-də Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə ballistik raket atdı. Raket çoxmərtəbəli yaşayış binasını yerləyeksan etdi, 10 mülki şəxs həyatını itirdi və uşaqlar da daxil olmaqla çox sayda xəsarət alanlar oldu.

Ermənistanın Gəncədə çoxmənzilli binanı raket atəşinə tutması işğalçı ölkənin dövlət səviyyəsində terror siyasəti yürütməsinin əyani təsdiqidir. Bu hücumlar, mülki əhalinin hədəfə alınması, sözün əsl mənasında, müharibə cinayətləridir və Ermənistan artıq qlobal bir problemə çevrildiyini nümayiş etdirir.

Yeri gəlmişkən, hərbi ekspertlərin bildirdiyinə görə, Gəncənin əhalinin sıx yaşadığı məntəqəsinə atılan SCUD tipli böyük məhvetmə gücünə malik olan ballistik raketin döyüş zonasından kənarda mülki insanlara qarşı istifadə olunması ATƏT məkanında birinci haldır. Ümumiyyətlə, dünya üzrə son hərbi münaqişələrdə müşahidə olunan nadir hallardan biridir.

Ermənistanın operativ-taktiki ballistik raket sistemləri dünən səhər radələrindən start vəziyyətinə gətirilərək Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərini yenidən hədəfə alınmışdı. Mülki insanların həyatını xilas etmək üçün qabaqlayıcı zərbə ilə atəşə hazır olan bu legitim hərbi hədəflər olan bu raket kompleksləri artıq zərərsizləşdirilib. Ermənistanın müdafiə nazirliyi özü də bu raketlərin döyüş hazırlığına gətirildiyini etiraf etmək məcburiyyətində qalıb.



Ermənistanın vandal, terror hərəkətləri təkcə bunlarla kifayətlənmir. Oktyabrın 12-də Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri xanım Arian Bauer ilə görüşündə Ermənistan hərbçiləri tərəfindən qətlə yetirilən hərbiçilərimizin meyitləri üzərində təhqiramiz hərəkətlərə yol verməklə törətdikləri cinayət əməllərinə dair sosial şəbəkələrdə paylaşılan videolar 1-ci Cenevrə Konvensiyasının 16-cı və 17-ci maddələrinin ciddi pozulduğunun sübutu olduğunu bildirib. Əli Nağıyev, eyni zamanda, Ermənistanın beynəlxalq humanitar hüquq normalarının, insan hüquqlarının, həmçinin özünün də qoşulduğu 1949-cu il tarixli Cenevrə Konvensiyalarının öhdəliklərinə məhəl qoymamasına baxmayaraq, meyitlərin dəyişdirilməsi, əsir və girovların azad edilməsinin daim Prezident İlham Əliyevin diqqət mərkəzində saxlanıldığını diqqətə çatdırıb.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.-15 oktyabr.- S.7.